QANUN № 02 (352), 2024, s. 115-119

**Səfərov Yılmaz Seyfəddin oğlu,**
Bakı Dövlət Universiteti Hüquq fakültəsinin «Beynəlxalq iqtisadi hüquq» ixtisası üzrə 2-ci kurs magistrantı
E-mail: yilmazseferov01@gmail.com

**UOT 341.1/.8**
**DOI: 10.30546/2218-9130. 02.352.2024.31**

# BEYNƏLXALQ İQTİSADİ HÜQUQDA DÖVLƏTLƏRİN İQTİSADİ İNKİŞAF STATUSUNUN TƏSNİFATLANDIRILMASI ZƏRURƏTİ

***Açar sözlər:*** *iqtisadi inkişaf statusu, preferensiya rejimi, qarşılıqlılıq, iqtisadi təhlükəsizlik, ən əlverişlilik prinsipi, imtiyaz sistemi, tarif imtiyazları, rəftar bərabərliyi.*

***Ключевые слова:*** *статус экономического развития, преференциальный режим, взаимность, экономическая безопасность, принцип наибольшего благоприятствования, преференциальная система, тарифные льготы, равенство обращения.*

***Keywords:*** *economic development status, preferential regime, reciprocity, economic security, most favorable principle, preferential system, tariff privileges, equality of treatment.*

Beynəlxalq iqtisadi hüquqda, xüsusilə də, Dünya Ticarət Təşkilatı hüququ çərçivəsində dövlətin iqtisadi inkişaf statusu onun ümumi beynəlxalq hüquqi statusu ilə birbaşa bağlıdır. Əgər beynəlxalq hüququn digər yarımsahələrində dövlətlərarası münasibətlərin əsası kimi BMT Nizamnaməsinin 2-ci maddəsində ifadə edilən “dövlətlərin suveren bərabərliyi” prinsipi üzrə formal bərabərlik çıxış edirsə, beynəlxalq iqtisadi hüquqda suverenlik müəyyən qədər nisbi xarakter daşıyır. Bu nisbilik müxtəlif iqtisadi, sosial və siyasi tendensiyalarla əlaqəlidir. Dövlətin özlərinə məxsus sosial-iqtisadi və siyasi inkişaf vəziyyətinin, dünya iqtisadi sistemində iştirak imkanın nəzərə alınması son nəticədə qlobal iqtisadi təhlükəsizliyin təmini üçün xüsusi əhəmiyyət kəsb edir.

Dövlətlərin iqtisadi inkişaf səviyyəsinə görə fərqləndirilməsi formal (suveren) bərabərlikdən geri çəkilmə ilə, preferensiya sistemi vasitəsilə təmin edilir. İnkişafda olan dövlətlər üçün preferensiya institutunun təsisi yönündə ilk addımlardan biri BMT-nin Ticarət və İnkişaf Konfransı (UNCTAD) çərçivəsində qəbul olunmuş 1964-cü il prinsiplərilə preferensiyaların ümumi sisteminin əsasının qoyulması olmuşdur. Daha sonra, 1966-cı ildə “Tariflər və Ticarət üzrə Baş Sazişdə” (GATT – 1947), “Dövlətlərin iqtisadi hüquq və vəzifələri” Xartiyasında (1974), “Yeni beynəlxalq iqtisadi qayda haqqında” Bəyannamə və Proqramda (1974), “Ticarət preferensiyalarının qlobal sistemi haqqında Belqrad Müqaviləsi”ndə (1988), Dünya Ticarət Təşkilatı sazişlərində və s. möhkəmləndirilmişdir [1].

İkinci Dünya müharibəsindən sonra formalaşan beynəlxalq hüququn əsas yeniliklərindən biri də beynəlxalq iqtisadi əlaqələrin universal hüquq normaları çərçivəsində tənzimlənməsi olmuşdur. Bu proses beynəlxalq iqtisadi münasibətlərdə dövlətlərin iqtisadi inkişaf bərabərliyini təmin etmək məqsədilə yeni norma və prinsiplərin təsisi ilə meydana gəlmişdir.

UNCTAD-ın katibliyinə görə dövlətlərin bərabər olmayan iqtisadi inkişaf statusunu ləğv etmək üçün ənənəvi davranış prinsipi kimi ən əlverişlilik prinsipindən çəkilməyə getmək lazımdır. Ən əlverişlilik prinsipi beynəlxalq iqtisadi hüququn subyektlərinə imtiyaz rejimlərinin bərabərliyini təmin etmək məqsədi ilə verilir. Lakin nəzərə alınmalıdır ki, iqtisadi cəhətdən qeyri-bərabərlik şəraitində müəyyən bir rejimin verilməsi faktiki olaraq formal bərabərliyin verilməsidir. Belə bir hal, öz növbəsində yenə də faktiki qeyri-bərabərlik anlamına gəlir. Məhz buna görə də inkişafda olan ölkələrlə ticarət əlaqələrində preferensiya prinsipinin tətbiqi zərurəti qəbul edilmişdir. Bu faktı nəzərə alaraq dövlətlərin iqtisadi inkişafından asılı olaraq onların təsnifatlandırılması həyata keçirilir [2].

UNCTAD-ın 1964-cü il iclasında inkişaf etməkdə olan ölkələrin xeyrinə tariflərə üstünlük verilməsi ticarət problemlərinin effektiv həlli yollarının axtarışında əsas məsələlərdən birini təşkil etdi. Burada tarif imtiyazları müəyyən arqumentə əsaslanırdı. Əsas cəhət ondan ibarət idi ki, həmin imtiyazlar ən əlverişli rejim prinsipinin müəyyən bir bazarda müxtəlif təchizatçılar arasında rəftar bərabərliyini yaratmaq üçün nəzərdə tutulmuşdu, lakin, inkişaf etməkdə olan ölkələr üçün vacib əhəmiyyət kəsb edən bir sıra problemlər:

- ən əlverişli rejim tarifi sıfır olmadıqca həm yerli istehsalçılarla, həm də Qərbi Avropada yaranan regional qruplaşmalar daxilindəki istehsalçılarla münasibətdə bərabərsizliyin davam etməsi;
- ən əlverişli rejim prinsipi ölkələr arasında iqtisadi strukturda və inkişaf səviyyələrindəki bərabərsizlikləri nəzərə almadığından iqtisadi cəhətdən qeyri-bərabər olan ölkələrə bərabər münasibətin yalnız formal xarakter təşkil etməsi;
- nisbi qarşılıqlılıq və ən əlverişli rejim prinsipindən istisnaların tətbiqi üzrə aparılan danışıqlardan sonra da inkişaf etməkdə olan ölkələrin ixrac etdiyi yarımfabrikat və digər qida məhsullarının yüksək tarif və rüsumlara məruz qalması və bununla da inkişaf etmiş ölkələrin daxili bazarında rəqabətə davamlılığının azalması rəftar bərabərliyinin təmin olunmasına imkan vermirdi.

Üstünlüklərlə bağlı fikir ayrılıqları sonralar da davam etmişdir. Lakin sonrakı müzakirələrdə, UNCTAD çərçivəsində qarşılıqlı olmadan, inkişaf etməkdə olan ölkələrin xeyrinə olan ayrı-seçkilik sisteminin:

(a) onların ixrac gəlirlərini artırmaq;

(b) sənayeləşmələrini təşviq etmək;

(c) iqtisadi artım templərini sürətləndirməkdən ibarət olması qərarlaşdırılır.

Ümumi preferensiya sisteminin yaradılması haqqında UNCTAD-ın (1964) mövqeyi DTT çərçivəsində daha da inkişaf etdirilmiş və preferensiya mexanizmi yalnız inkişaf etməkdə olan dövlətlərə birtərəfli güzəşt deyil, eyni zamanda inkişaf etməkdə olan dövlətlərin öz aralarında tətbiqi üçün də təsis edilmişdir. Ümumi preferensiya sisteminin gömrük güzəştlərinə də şamil edilməsi GATT-a 1966-cı il dəyişikliyindən sonra mümkün olur [3]. GATT-ın IV hissəsi (inkişaf hüququnu ehtiva edən 36-38-ci maddələrin əlavə olunması) ilə sonradan DTT/GATT sistemi sənədlərində “imtiyazlı ölkələr” kateqoriyası meydana gəlir. Ancaq, YBİQ-in siyasi xarakteri, onun “soft” – yumşaq hüquqi təbiəti əksəriyyət inkişaf etmiş dövlətlər tərəfindən ona riayət edilməməsinə səbəb olurdu.

DTT hüququnun əsas prinsiplərindən biri olan ayrı-seçkiliyə yol verməmək prinsipi müəyyən

istisna ilə tətbiq edilməkdədir ki, bu istisnalardan biri də inkişaf etməkdə olan dövlətlər üçün ümumi qaydadan pozitiv mənada ayrı-seçkiliyin təsis edilməsidir. İnkişaf etmiş dövlətlər qarşı çıxsa da, bu prinsiplə əsas məqsəd kimi inkişaf etməkdə olan dövlətləri inkişaf etmiş dövlətlərlə eyni iqtisadi statusda yaxınlaşdırmaq, bərabərləşdirməkdir. İkinci Dünya müharibəsinin yekunlaşmasından sonra vahid Beynəlxalq Ticarət Təşkilatının yaradılması cəhdlərinin baş tutmamasının, həmçinin inkişaf etmiş dövlətlərin inkişaf etməkdə olan dövlətlərə preferensiya prinsipi çərçivəsində üstünlük verilməsinə qarşı çıxmalarının əsas səbəbləri kimi:

- inkişaf etmiş dövlətlər tərəfindən inkişaf etməkdə olan dövlətlərə imtiyaz və üstünlüyün verilməsinin ayrı-seçkiliyin qadağan olunması prinsipinə zidd olması;
- həmin ölkələrin iqtisadi və siyasi maraqlarının prioritetliyinin qəbul edilməsi;
- öz müstəqil inkişaf yollarını tapmış və sosial-iqtisadi baxımdan uğur əldə etmiş dövlətlər kimi inkişaf etmiş dövlətlərin preferensiya prinsipinə uyğun olaraq inkişaf etməkdə olan dövlətlərə imtiyaz verilməsini iqtisadi bərabərliyə uyğun görməmələri qeyd edilə bilər [4].

Bunun nəticəsi idi ki, sənayecə inkişaf etmiş ölkələrin inkişafda olan ölkələrdən idxal edilən mallara yüksək gömrük yığım və rüsumları qoyması ilə həmin ölkələrə qarşı özlərinin proteksionizm siyasəti meydana gəldi. İnkişaf etmiş dövlətlərin proteksionist siyasətini önləmək, onların güzəştlərlə bağlı öhdəliklərinin icrasının təmini üçün daha sərt – "hard" hüquqa zərurət yaranırdı. Bu boşluq sonralar GATT-ın Uruqvay (1986-1994) raundunda təmin edilir. Uruqvay raundunun nəticəsində inkişafda olan dövlətlərin beynəlxalq iqtisadi münasibətlərdə qeyri-bərabər (müsbət anlamda) iqtisadi statusu formal olaraq təsdiqlənir və həmin ölkələr üçün imtiyaz sistemi qəbul edilir.

GATT üzvlərinin artması ilə, xüsusən də inkişaf etməkdə olan ölkələrin danışıqlarda iştirakı zamanı qarşılıqlılıq prinsipinin tətbiqi baxımından problemlər yaranırdı. İnkişaf etməkdə olan ölkələr üçün güzəştli ixrac tariflərinin tətbiqi inkişaf etmiş ölkələrlə ticarətdə böyük əhəmiyyət ifadə edirdi. Bu imkan ilk dəfə 1963-cü ilin mayında keçirilən GATT nazirlərinin görüşündə, daha sonra isə bu məqsədlə yaradılmış işçi qrup tərəfindən rəsmi şəkildə müzakirə edilmişdi. İnkişaf etməkdə olan ölkələrin ticarət və inkişaf problemlərinə bu yeni vurğu Tariflər və Ticarət üzrə Baş Sazişin yenidən nəzərdən keçirilməsi ilə nəticələndi. 1966-cı ildə sənədə bu məzmunda IV hissə əlavə edilsə də, inkişaf etməkdə olan ölkələr bununla da qarşılıqlı-bərabər münasibətdən tam azad etməmişdir. GATT-ın XXXVI maddəsinin 8-ci bəndində inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrlə ticarət danışıqlarında götürdükləri öhdəliklərə görə qarşılıq gözləməyəcəkləri bildirilsə də, maddəyə qeyd şərtdə deyilir ki, inkişaf etməkdə olan ölkələr üçün bu maddə ilə nəzərdə tutulan "fərdi inkişafa, maliyyə və ticarət ehtiyaclarına uyğun olmayan töhfələrin verilməsi" gözlənilmirdi [5, s. 593; 6].

Məsələnin beynəlxalq iqtisadi təhlükəsizlik baxımdan əhəmiyyətinin artması ilə preferensiya prinsipinin Yeni Beynəlxalq İqtisadi Qayda (YBİQ) institutuna keçirilməsi üçün beynəlxalq hüquqi tədbirlər də qəbul edildi. 1974-cü ilin əvvəllərində BMT Baş Məclisinin xüsusi sessiyasında etiraf olunur ki, fəaliyyətdə olan beynəlxalq iqtisadi qayda inkişafın tələblərinə cavab vermir, əksinə dünya miqyasında qarşılıqlı asılılıq şəraitində dövlətlərin inkişafının qarşısını alır. Bunu nəzərə alaraq Yeni Beynəlxalq İqtisadi Qaydanın yaradılması haqqında fəaliyyət Proqramı və eyni adlı Bəyannamə qəbul edilir. Yenə də həmin ildə BMT Baş Məclisi özünün növbəti sessiyasında YBİQ-in təsis olunması yolunda irəliyə doğru daha bir addım atır və Dövlətlərin iqtisadi hüquq və vəzifələri haqqında Xartiyanı qəbul edir.

YBİQ-ə görə:

- inkişaf etmiş sənaye ölkələrinə şamil edilmədən inkişafda olan dövlətlər arasında qarşılıqlı preferensiyaların tətbiqi;
- bir tərəfli qaydada sənayecə inkişaf etmiş dövlətlər tərəfindən inkişafda olan dövlətlərə preferensiyaların verilməsi;
- inkişafda olan dövlətlərə təqdim edilən preferensiyanın müəyyən müddətlə məhdudlaşdırılması;
- inkişafda olan dövlətlərə verilən güzəştlərin tədricən həmin dövlətlər tərəfindən ləğvi istiqamətində tədbirlərin həyata keçirilməsi öhdəliyi və s. nəzərdə tutulur [1].

XX əsrin sonlarına yaxın GATT-ın Tokio və daha sonra Uruqvay raundu çərçivəsində aparılan çoxtərəfli ticarət danışıqları nəticəsində inkişaf etməkdə olan ölkələrə preferensiya əsaslı diferensial və ən əlverişli rejim təqdim edilməsi qərarlaşdırılır [7; 8, s.39-45]. Bununla belə, hazırda da DTT hüququnda inkişaf etməkdə olan ölkələrin preferensiya hüququ tam effektiv sayıla bilməz. DTT hüququnun neoliberalizm konsepsiyası, üzv sənaye ölkələrinin yüksək iqtisadi gücü, fərqli iqtisadi statusda olan inkişaf etməkdə olan ölkələr üçün daha geniş istiqamətdə və daha uzun müddətli adaptasiya dövrünün tanınmasını tələb edir.

**İstifadə edilmiş mənbələr:**


1. Sadıqov, Ə. İ. Beynəlxalq iqtisadi hüquq. Dərslik. – Bakı: «Bakı Universiteti» nəşriyyatı, – 2008. – 396 s.
2. Əliyev, E. Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. – Bakı: "Günəş B" nəşriyyat poliqrafiya müəssisəsi, – 2016. – 690 s.
3. Ковалев, А. А. Международное экономическое право и правовое регулирование международной экономической деятельности. Учебное пособие. – М.: Научная книга, – 2007. – 424 с.
4. Şeyma Yılmaz Kuşçuoğlu, Zeki Yılmaz. Farklı Gelir Düzeyindeki Ülkelerde Ticari Açıklık, Finansal Gelişme Ve Ekonomik Büyüme İlişkisi" // IBAD Sosyal Bilimler Dergisi - IBAD, 2020; (Özel Sayı). – s. 148-170;
5. Şaban Kayıhan, Mehmet Eski Uluslararası Ekonomi Hukuku Kavramı ve Uluslararası Ekonomi Hukukunun Kaynakları // International Conference on Eurasian Economies 2015 Session 2D: Hukuk I. – 591-600 s.;
6. The General Agreement on Tariffs and Trade: [Electronic resource] / URL: https://www.wto.org/english/docs_e/legal_e/gatt47.pdf;
7. The history of UNCTAD 1964 – 1984. United Nations Publications. 294 s.: [Electronic resource] / URL:https://unctad.org/system/files/official-document/osg286_en.pdf;
8. United States – Measures Concerning the Importation, Marketing and Sale of Tuna and Tuna Products: [Electronic resource] / URL: https://www.wto.org/english/tratop_e/dispu_e/381abrw2_e.pdf;


**Сафаров Йылмаз Сейфаддин оглу**

## ЗНАЧЕНИЕ КЛАССИФИКАЦИИ СТАТУСА ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ ГОСУДАРСТВ В МЕЖДУНАРОДНОМ ЭКОНОМИЧЕСКОМ ПРАВЕ

### РЕЗЮМЕ

Тот факт, что содержание преференциального режима, применяемого к развивающимся странам в международном экономическом праве, не выражено в праве Всемирной торговой организации, привело к применению отдельных преференциальных систем развитыми странами. В рамках данной статьи исследуется история становления идеи о том, что принцип «формального» суверенного равенства государств не включает в себя фактическое экономическое равенство в международном экономическом праве. Вопрос отсутствия критериев применения дифференцированного режима, основанного на преференциях, к развивающимся странам выделен как одна из

наиболее серьезных проблем в праве Всемирной торговой организации, касающемся глобальной экономической безопасности.

**Safarov Yılmaz Seyfaddin**

## THE NECESSITY OF CLASSIFICATION OF THE ECONOMIC DEVELOPMENT STATUS OF STATES IN INTERNATIONAL ECONOMIC LAW

### SUMMARY

The fact that the content of the preferential regime applies to developing countries in international economic law is not expressed in the World Trade Organization law has led to the application of individual preferential systems by developed countries.

Within the frame of this article, the history of the establishment of the idea that the principle of «formal» sovereign equality of states does not include actual economic equality in the international economic law is researched and the issue of the absence of criteria for the application of the preference-based differential regime to developing countries is highlighted as one of the most serious problems in World Trade Organization law concerning global economic security.

**Redaksiyaya daxilolma tarixi: 24.01.2024**
**Təkrar işlənməyə göndərilmə tarixi: 25.01.2024**
**Çapa qəbul olunma tarixi: 26.01.2024**